QANUN № 07 (381), 2026, s. 54-56



**Cəbi Gülşən Zabit qızı,**
hüquq elmləri üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: gulshanjabi@bsu.edu.az

**UOT 342.5; 342.54; 342.56**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9056**

# SOSİAL DÖVLƏTDƏ HÜQUQ VƏ AZADLIQLARIN MÜDAFİƏSİ MEXANİZMLƏRİ HAQQINDA

***Açar sözlər:*** *Azərbaycan Respublikası, sosial dövlət, rifah dövləti, müdafiə mexanizmləri, məhkəməyəqədər müdafiə mexanizmləri, məhkəmə.*

***Ключевые слова:*** *Азербайджанская Республика, социальное государство, государство всеобщего благосостояния, механизмы защиты, механизмы досудебной защиты, суд.*

***Keywords:*** *Republic of Azerbaijan, social state, welfare state, protection mechanisms, pretrial protection mechanisms, court.*

Hüquqda artıq klassikləşmiş anlayışlardan biri odur ki, hüquq və azadlıqların tanınması ilə bərabər əhəmiyyətli olan digər məsələlər onların realizəsi və müdafiəsi mexanizmlərinin müəyyənləşdirilməsidir.

Üçlük şəklində olan bu prosesdə bir mərhələnin yoxluğu və ya zəifliyi digər mərhələlərin də mahiyyətini kəskin zədələyir.

Bu baxımdan sosial dövlət anlayışı, sosial dövlətin mahiyyəti araşdırılanda yalnız hüquq və azadlıqların tanınması məsələlərinə deyil, həm də onların realizəsi və müdafiəsi məsələlərinə diqqət etmək vacibdir.

Bu məsələyə münasibətdə sosial dövlətin (rifah dövləti) əsas cəhətlərindən biri odur ki, istər hüquq və azadlıqların realizəsi, istərsə də müdafiəsi məsələləri yalnız konstitusion-hüquqi aspektlə müəyyən olunmur, hüququn və elmin müxtəlif sahələrini əhatə edir ki, bu da həm kompleks yanaşmanı, həm də çoxşaxəli araşdırmanı tələb edir.

Sosial dövlətdə müdafiə mexanizmlərinə münasibətdə hüquq baxışlarında aydınlaşdırılmalı olan iki istiqamət var:

1) müdafiə mexanizmlərinin təsis mənbələri;

2) müdafiə mexanizmlərinin növləri və fəaliyyətinin əsasları.

***1. Müdafiə mexanizmlərinin təsis mənbələri***

Bu məsələ araşdırılarkən təsis mənbələri və fəaliyyət mənbələri kateqoriyaları təsnifləşdirilməlidir. Bu baxımdan düşünürük ki, təsis mənbələri ənənəvi baxışlara uyğun olaraq iki istiqamətdədir:

1) beynəlxalq mənbələr;

2) milli qanunvericilik.

Müdafiə mexanizmlərinin təsis mənbələri dedikdə ilk növbədə konstitusion hüquqi mənbələr (konstitusion hüquq normaları) əsas götürülürsə, müdafiə mexanizmlərinin növləri və fəaliyyətinin əsasları həm konstitusion hüquq normaları, həm də prosessual hüquq normaları, inzibati hüquq normaları, əmək hüquq normaları və digər hüquq sahələri üzrə maddi, prosessual,

prosedur məsələləri tənzimləyən hüquq normalarını əhatə edir.

Konstitusion hüquq normaları bir tərəfdən hüquq subyektlərinin malik olduqları hüquq və azadlıqların müdafiəsi üçün onlara təminatlar müəyyənləşdirirsə, digər tərəfdən digər subyektlər və müdafiə mexanizmlərinin daşıyıcısı olan təsisatların vəzifələrinin əsaslarını müəyyən edirlər.

Qüvvədə olan konstitusion hüquq normalarına əsasən (maddə 26), Azərbaycan Respublikasında hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir [1].

Həmçinin konstitusion normalara əsasən hüquq və azadlıqların müdafiəsi mexanizmi olaraq inzibati və məhkəmə mexanizmləri təsis edilmişdir. Belə ki, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər [1].

Beynəlxalq mənbələr isə dövlətlərin tərəfdar çıxdıqları müqavilələr, konvensiyaların normalarında təsis edilmiş mexanizmləri əhatə edir və bunlar daha çox universal xarakteri ilə seçilir [2].

***2. Müdafiə mexanizmlərinin növləri və fəaliyyətinin əsasları***

Təsis mənbələrinə uyğun olaraq hüquq və azadlıqların müdafiəsi mexanizmlərini iki qrupda təsnifləşdirmək mümkündür:

1) universal mexanizmlər;

2) yerli mexanizmlər.

Universal mexanizmlər bir ölkədaxili mexanizm olmamaqla, regional və ya qlobal beynəlxalq miqyasda fəaliyyət göstərən təsisatların fəaliyyətini nəzərdə tutur.

Yerli mexanizmlər isə konkret dövlətdaxili mexanizmlər olmaqla, həmin dövlətin tam yurisdiksiyası altında fəaliyyət göstərir.

Həmçinin müdafiə mexanizmlərinin özlərini təsisatların hüquqi əsasları, idarəetmə və dövlət hakimiyyət sistemində yeri baxımından müxtəlif kateqoriyalarda təsnifləşdirmək mümkündür. Belə ki, universal mexanizmlərin özlərini iki istiqamətdə fərqləndirmək olar:

1) beynəlxalq təşkilatlar vasitəsilə müdafiə;

2) beynəlxalq məhkəmələr vasitəsilə müdafiə.

Yerli mexanizmlərin alt təsnifatını da analoji meyarlarla müəyyənləşdirmək mümkündür:

1) məhkəməyəqədər müdafiə;

2) məhkəmə qaydasında müdafiə.

Qeyd etmək lazımdır ki, bəzən yerli hüquq ədəbiyyatlarında məhkəməyəqədər müdafiə ifadə ilə məhkəmədənkənar müdafiə anlayışlarının sinonim kimi istifadəsi müşahidə edilir. Halbuki fikrimizcə, bu yanaşma doğru sayıla bilməz. Məhkəməyəqədər müdafiə mexanizmləri məhkəmələrə prosessual müraciətdən əvvəl müxtəlif inzibati orqanlar, həmkarlar ittifaqları, əmək kollektivləri və s. vasitəsilə həyata keçirilən mexanizmləri əhatə edirsə, məhkəmədənkənar müdafiə mexanizmləri konkret məsələ məhkəmə araşdırmasında olarkən də digər subyektlər vasitəsilə müdafiəni nəzərdə tutur. Məsələn, prosessual hüquqda tətbiq edilən mediasiya, yaxud mübahisə tərəflərinin məhkəmə prosesindən kənarda barışıq sazişi razılaşması və s.

Hüquq və azadlıqların yerli müdafiə mexanizmlərində ayrıca istiqamət olaraq İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) müəyyən edilir. Fikrimizcə, Ombudsmanın hüquqi statusunun xüsusiyyətləri nəzərə alınaraq onun məhkəməyəqədər müdafiə mexanizmlərinə və ya məhkəmə qaydasında müdafiə mexanizmlərinə daxil edilməsi hüquqi uyğunsuzluq yaratmaqla bərabər, institutun sosial yükünü də zədələmiş

olar. O baxımdan hesab edirik ki, Ombudsman hüquq və azadlıqların müdafiəsi mexanizmində fərqli təsnifatda tədqiq edilməlidir.

Qeyd olunanlara əsasən düşünürük ki, hüququn artıq klassik anlayışlarından birinə çevrilmiş, hüquq və azadlıqların müdafiəsi mexanizmlərinə aid məsələlər yalnız ənənəvi yanaşmaları tələb etmir, həm də reallığın inkişafına uyğun elmi və sistemli yanaşmanı, praqmatik təhlilləri tələb edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). [Elektron resurs]/URL: https://e-qanun.az/framework/897 (19.07.2026)

2. The Major Universal Human Rights Instruments and the Mechanisms for their Implementation. [Electronic resource] /URL: https://peacemaker.un.org/sites/default/files/document/files/2022/07/ohchribamajoruniversalhumanrightsinstrumentsandmechanismsforimplementationextract2003.pdf (19.07.2026)

**Джаби Гюльшан Забит гызы,**
доктор философии по праву, доцент кафедры конституционного права
юридического факультета Бакинского государственного университета

**О МЕХАНИЗМАХ ЗАЩИТЫ ПРАВ И СВОБОД
В СОЦИАЛЬНОМ ГОСУДАРСТВЕ**

**РЕЗЮМЕ**

В статье рассматривается ряд вопросов, связанных с механизмом защиты прав и свобод человека в социальном государстве, различаются типы механизмов и излагается научная позиция автора.

**Jabi Gulshan Zabit,**
PhD in Law, Associate Professor, Department of
Constitutional Law, Faculty of Law, Baku State University

**ON THE MECHANISMS OF PROTECTION OF RIGHTS
AND FREEDOMS IN THE SOCIAL STATE**

**SUMMARY**

The article deals with a number of issues related to the mechanism of protection of human rights and freedoms in the social state, different types of mechanisms and the scientific position of the author is explained.

**Redaksiyaya daxilolma tarixi: 21.06.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2026**
**Çapa qəbul olunma tarixi: 22.07.2026**